MahadSunnah

# من هم أولياء الله

# Allahın dostları kimlərdir


**Şeyx Heysəm Sərhan**

"Sünnə" tədris mərkəzinin rəhbəri


Azərbaycan dili

اللغة الأذرية



Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM

MAHADSUNNAH.COM

بِسۡمِ ٱللَّهِ ٱلرَّحۡمَٰنِ ٱلرَّحِيمِ

Allahın ﷻ dostları (övliyalar) kimlərdir ? ? ?

İnsanlardan elə etiqad edənlər var ki, Allahın ﷻ dostlarının ziyarətgahlarda və ya günbəzlərin altında yatdığını düşünürlər.

Doğrusu övliya, dünyadakı məqamından asılı olmayaraq, təqvalı mömin olan şəxsdir.

Kim təqvalı mömindirsə o Allahın ﷻ dostudur.

Allah ﷻ buyurur:

﴿أَلَآ إِنَّ أَوۡلِيَآءَ ٱللَّهِ لَا خَوۡفٌ عَلَيۡهِمۡ وَلَا هُمۡ يَحۡزَنُونَ ٦٢ ٱلَّذِينَ ءَامَنُواْ وَكَانُواْ يَتَّقُونَ ٦٣﴾

“Şübhəsiz ki, Allahın dostlarının heç bir qorxusu yoxdur və onlar kədərlənməyəcəklər. Onlar iman gətirmiş və (Allahdan) qorxmuşlar.”[1]

Övliya kəliməsi vəli kəliməsindən götürülüb. Onun da mənası yaxın deməkdir. Deməli, Allahın ﷻ vəlisi Allahı ﷻ daha yaxşı tanıyan, Ona davamiyyətli itaət, ixalaslı şəkildə ibadət edərək Ona yaxınlaşan kəsdir.

---

[1] Yunus surəsi, 62-63-cü ayə

Allahın ﷻ övliyaları Allahın ﷻ sevdiyini sevənlər, onun nifrət etdiyi şeyə nifrət edənlərdirlər.

Peyğəmbər ﷺ buyurub:

"İmanın ən möhkəm bağları Allah üçün sevmək, Allah üçün nifrət etməkdir".[2]

O ki qaldı övliyaların qəlblərinə düşən ilahi elm əsasında şəriətin dəlillərinə əməl etmələrinə ehtiyac olmadığı iddiasına, bu, yalan və zəlalətdir.

Onların əllərində möcüzələrin olması da şərt deyil.

Məhz buna görə də alimlər buyurmuşlar:

"Əgər bir adamın havada uçduğunu və ya suyun üzərində yeridiyini görsən, onun əmr və qadağalara əməl etdiyini görməyincə, ona aldanma".[3]

Allahın ﷻ övliyalarını digər insanlardan fərqləndirən müəyyən geyim, müəyyən bir hekayə və s. kimi xüsusi heç nəsi yoxdur.

Övliyalar məsum deyillər. Əksinə onlar da xəta edə bilərlər. Lakim onlar xətaları üzərində israrlı olmazlar.

Peyğəmbər ﷺ buyurub:

---

[2] Əhməd (18524)
[3] Siyər liz-Zəhəbi

"Hər bir Adəm övladı xəta edəndir, lakin xəta edənlərin ən xeyirlisi tövbə edənlərdir".[4]

Özünə zülm edən mömininin imanı qədər Allahın ﷻ dostluğu, itaətsizliyi qədər isə şeytanın dostluğu vardır.

Allahın ﷻ övliyalarının ən fəzilətlisi Onun elçiləridir. Onların ən fəzilətlisi isə peyğəmbərlərin sonuncusu və müttəqilərin imamı olan Muhəmməddir ﷺ.

Allahın ﷻ dostlarını özünə dost tut. Onlara düşmən olmaqdan özünü qoru.

Peyğəmbər ﷺ qüdsi hədisdə buyurub: Allah ﷻ belə dedi:

"Kim mənim dostlarıma qarşı düşmənçilik edərsə, mən ona qarşı müharibə elan edərəm".[5]

---

4 Tirmizi (2499), Əhməd (13049)
5 Buxari (6502)